# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 437** **Bakı şəhəri, 3 noyabr 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Yaşayış sahəsinin xüsusi təyinatlı mənzil fonduna aid edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 25 iyun tarixli 118 nömrəli və "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 24 avqust tarixli 317 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 562) ilə təsdiq edilmiş "Yaşayış sahəsinin xüsusi təyinatlı mənzil fonduna aid edilməsi Qaydası"nın 2.1.4-cü yarımbəndinin birinci cümləsində "dövlət sosial (qocalar, əlillər üçün müəssisələrin, müalicə, tərbiyə və s.)" sözləri "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsində nəzərdə tutulmuş dövlət sosial" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454; 2018, № 4, maddə 813, № 5, maddə 1127; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 477) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın 21 nömrəli əlavəsində - "Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin daktiloskopik qeydiyyat vərəqi"nin "Fərqli əlamətləri və ya fiziki qüsurları" hissəsində "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti.- 2020.- 5 noyabr.- S.9.